


# AZƏRBAYCAN ƏRAZİSİNDƏ TERROR AKTI TÖRƏTMƏYİ PLANLAŞDIRAN XARİCİ ÖLKƏ VƏTƏNDAŞI SAXLANILMIŞDIR

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) ölkəmizin milli təhlükəsizliyinə və dövlət maraqlarına qarşı yönələn terror-təxribat və kəşfiyyat-pozuculuq fəaliyyəti ilə mübarizə istiqamətində əməliyyat-istintaq tədbirlərini davam etdirir.

Aparılan araşdırmalarla Əfqanıstan İslam Respublikasının vətəndaşı, 1990-cı il təvəllüdlü Favzan Musa Xanın (Fawzan Mosa Khan) digər şəxslərlə qabaqcadan əlbir olaraq Azərbaycan Respublikası ərazisində ictimai sabitliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyəti orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə partlayış, yanğın və ya digər bu kimi hadisələrlə müşayiət olunacaq, insanların həlak olması, onların sağlamlığına zərər yetirilməsi, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli halların baş verməsi ilə nəticələnəcək terror aktı törətməyi planlaşdırması müəyyən edilmişdir.

Məlum olmuşdur ki, adıçəkilən əcnəbi qeyd olunan cinayət əməllərini törətmək niyyəti ilə xarici ölkədən Azərbaycan Respublikasına gəlmiş, Bakı şəhərində yaşadığı müddətdə üçüncü dövlətin ölkəmizdəki Səfirliyinin yerləşdiyi ərazinin koordinatlarını müəyyənləşdirmək və terror aktını planlaşdırmaq məqsədilə səfirliyin binasının ətrafında müşahidə aparmış, terror aktında iştirak edə biləcək şəxslərin müəyyən edilərək bu fəaliyyətə cəlb olunması, odlu silah və partlayıcı maddələrin əldə edilməsi, bu məqsədlərlə maliyyə dəstəyinin alınması üçün digər şəxslərlə əlaqəyə girərək sövdələşmişdir.

Faktla bağlı Favzan Musa Xan DTX-nin İstintaq baş idarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28, 214.2.1 və 28, 214.2.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs halında odlu silah və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə terrorçuluq hərəkətlərinin törədilməsinə hazırlıq) maddələri ilə başlanılmış cinayət işi üzrə cinayət başında saxlanılaraq təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunmuş və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda terror aktını planlaşdıran şəxslərin dairəsinin tam müəyyən olunması istiqamətində DTX tərəfindən kompleks istintaq-əməliyyat və beynəlxalq hüquqi prosedur tədbirləri həyata keçirilir.

# PREZİDENT İLHAM ƏLİYEV: BİZ ARTIQ BU HƏDƏFƏ ÇATMIŞIQ

***Prezident İlham Əliyevin 2023-cü ilin 6 ayının sosial iqtisadi yekunlarına həsr olunmuş müşavirədəki çıxışına ictimai fəal münasibəti***



11.07.2023-cü il tarixində Prezident İlham Əliyevin 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədəki çıxışı göstərdiki xalqın Prezidentinə olan etimadının zəifləməsinə çalışan qeyri-sağlam qüvvələr var. Prezident cıxışının əvvəlində iqtisadi göstəricilərə yer verərək qeyd edir ki, bir neçə il bundan əvvəl biz qarşıya hədəf qoymuşduq ki, xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun 10 faizinin altında olsun. Biz artıq bu hədəfə çatmışıq. Mütləq rəqəmlərdə bizim borcumuz cəmi 6,7 milyard dollardır və bu da ümumi daxili məhsulumuzun təxminən 10 faizini təşkil edir.

Onsuz da bizim builki dövlət büdcəmiz rekord həddə, 33 milyard manatdan çox səviyyəyə qalxmışdır. Ancaq ilin birinci yarısında əlavə gəlirlərin əldə edilməsi imkan verdi ki, biz təcili həllini gözləyən məsələləri daha tez zamanda həll etmək üçün büdcəyə əlavələr edək və bunu etdik. Bu gün ölkəmizin büdcəsinin 36 milyard manatdan çox olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: "Əlbəttə, bu, bizə imkan verir ki, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra edək, ilk növbədə, azad edilmiş torpaqlarda geniş quruculuq işlərinə növbəti təkan verək və hərbi gücümüzü artıraq".

Azərbaycanın qeyri-neft sənayesi 6,5 faiz artıb və qeyri-neft sektoru, ümumiyyətlə, 3 faizdən çox artıb. Bununla bərabər, bizim maliyyə vəziyyətimiz böyük dərəcədə yaxşılaşıb. Ölkənin maliyyə vəziyyətinin yaxşılaşmasını təmin edən amillər arasında dövlətimizin başçısı, ilk növbədə, maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsini, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsini, şəffaflığın təmin olunmasını qeyd edib. "Bütün bu amillər imkan verdi ki, ilin ortasında biz büdcəyə yenidən baxaq və dürüstləşmə aparaq. Bu, çox sevindirici haldır, çünki proqnozlardan xeyli dərəcədə böyük vəsait toplanmışdır" Əminəm ki, ilin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcək.

"Bu ilin altı ayında isə əsas istiqamətimiz ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi idi. Deyə bilərəm ki, bütövlükdə altı ay ərzində iqtisadiyyatımız inkişaf edib, halbuki mütləq rəqəmlər o qədər də böyük deyil", - deyə dövlətimizin başçısı qeyd edib. Ölkəmizin böyük hissəsi artıq rəsmən "yaşıl enerji" zonası elan edilib və bunun fonunda Gədəbəy rayonunda baş vermiş hadisə tamamilə qəbuledilməzdir.

Əsas mühüm məsələ isə Prezidentin ölkə ictimaiyyətinin Gədəbəy hadisəsinə qiymət verməsi olub. "Mən hesab edirəm ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ən azı səhlənkarlığa yol verib, nəzarətsizlik nümayiş etdirib, passiv müşahidəçi kimi çıxış edib və bunun nəticəsində xarici investor bizim təbiətimizi zəhərləyib. İnsanlar haqlı olaraq öz etiraz səsini ucaldıblar, amma onların səsinə baxan olub? Yox! Bir gün, iki gün, üç gün, beş gün, hara baxırdı Ekologiya və Təbii Sərvətlər Nazirliyi? Bilmirdimi ki, belə problem var? Ya bilirdi gözünü yumurdu, ya da bilmirdi. Hər ikisi qəbul edilən deyil", - deyə dövlətimizin başçısı vurğulayıb.

Prezident qeyd edir hadisə ilə bağlı məlumat aldıqdan sonra zəng edib Baş nazirə dedim ki, mütləq komissiya yarat və göndər hadisə yerinə getsin. Yaxşı, bunu mən deməli idim? Ekologiya naziri özü bilmirdi ki, oraya getməlidir?

Dövlətimizin başçısı Nazirlər Kabinetini, Ekologiya və Təbii Sərvətlər Nazirliyini tənqid edərək deyib: "Mən demişəm, gedin orada camaatla danışın, o torpağın, havanın nümunələrini götürün, beynəlxalq ekspertləri cəlb edin ki, - çünki nazirlik bir halda bu hadisənin səbəbkarı olub, ola bilər ki, işi malalasın, - onlar rəy versinlər, bu yataqların istismarı nə dərəcədə insanların sağlamlığına, təbiətə zərər vurur. Prezident tapşırıb ki, bir həftə ərzində həm ona, həm ictimaiyyətə məlumat verilməlidir və məsələ araşdırılmalıdır.

Azərbaycanda xaos, özbaşınalıq, təxribat xarakterli addımların 1993-cü ildə başa çatdığını qeyd edən dövlətimizin başçısı deyib: "Əgər kimsə unudubsa, biz xatırlada bilərik. Ona görə vətəndaşlar da həm mədəniyyət göstərməlidirlər, necə deyərlər, mərifət göstərməlidirlər, qanuna tabe olmalıdırlar, polisə daş atmamalıdırlar, polisə daş atmaq heç kimə şərəf gətirən hərəkət deyil. Bu, birincisi. İkincisi, bu, cinayətdir. Əgər Azərbaycan polisi dözümlülük göstərirsə, o demək deyil ki, kim istəyir polisə daş ata bilər. Bu, qətiyyən mümkün deyil. Mən hər kəsə deyirəm, burada biz kiminsə nazı ilə oynayası deyilik, necə lazımdır, əgər lazım bilsək, kimi lazımdır, elə cəzalandırarıq ki, peşman olar".

Ölkə başçısının bu sərt cıxışından sonra 13.07.2023-cü il tarixdə Baş nazir Əli Əsədovun yanında Gədəbəy rayonunun Söyüdlü kəndində vəziyyətin araşdırılması üçün yaradılmış Komissiyanın ikinci iclası keçirilib.

Əli Əsədov iclasda Söyüdlüyə beynəlxalq audit şirkətinin səfər edəcəyini bildirib . Təbiətə, insanların sağlamlığına yaranmış təhlükəni nəzərə alaraq şirkətin fəaliyyətinin müvəqqəti dayandırılması ilə bağlı qərar qəbul etdiyini deyib. Cəlb edilmiş beynəlxalq şirkət tərəfindən aparılacaq qiymətləndirilmənin nəticələrinə və veriləcək tövsiyələrə uyğun olaraq işini təşkil edəcəyi təqdirdə müəssisənin fəaliyyətinin bərpa edilməsi məsələsinə baxıla bilər.

Baxın dövlət başçısının gərgin iş fəaliyyətinə, xarici iqtisadi münasibətlərin qurulması, daxili sabitliyin yaradılması, Qarabağda yarımçıq qalmış münaqişənin və Ermənistanla sərhəd məsələsinin həlli, iqtisadi inkişafın tənzimlənməsi və Dünyanın yeni nizama hazırlanması ərəfəsində Azərbaycanın layiqli və güclü bir dövlət kimi imicinin qorunub saxlanması. Bütün bu sahələr üzrə Prezidentin iradəli fəaliyyəti göz qabağındadır. Xarici maraqlı qüvvələrə xidmət edənlər, müəyyən gəlir sahələri əllərindən çıxanlar, xalqa yuxarıdan aşağı baxanlar daim bu sabitliyin pozulmasına Azərbaycanın beynəlxalq imicinə xələl gətirilməsinə, xalqın ölkə prezidentinə olan etimadına kölgə salmaq istyənlər heç vaxt istəylərinə nail ola bilməyəcəklər. Xalq yaxşı bilir ki, intiqamla çalışan ağıllar dövləti dağıdar, barışığa can atan ağıllar dövlət yaradar, milli birlik yaradar. Azərbaycan xalqı dövlət başçısı İlham Əliyevin daim yanındadır və onun rəhbərliyi ilə qüdrətli Azərbaycan dövləti yaranıb və beynəlxalq birlikdə də layiqlə təmsil olunacaqdır.

*Əmir Çıraqəliyev, ictimai fəal*



# BİNƏQƏDİDƏ İNSANLAR TƏHLÜKƏ ALTINDA YAŞAYIR

Hörmətli redaksiya! Mən əslən Zəngilan rayonunun Ağalı kəndindənəm, 60 yaşım var və insult keçirmişəm, təəssüflər ki, digər xəstəliklərim də var. Sizə məktub yazmaqda məqsədim uzun illərdir bizi ciddi narahat edən yüksək gərginlikli elektrik xətlərinin burada yaşayan çoxsaylı insanların həyatına yaratdığı təhlükədir.

Azərişıq ASC-yə, Azərenerji-yə, Energetika Nazirliyinə və Nazirlər Kabinetinə etdiyimiz müraciətlərin heç bir fayda vermir. Bir neçə il öncə ölkə rəhbəri cənab İlham Əliyev müvafiq orqanlara şəhərin mərkəzində, əhalinin sıx məskunlaşdığı yerlərdə və Bakı şəhərinin səliqəli, təhlükəsizliyi ilə bağlı yüksək gərginlikli elektrik xətlərinin daha müasir səviyyədə, yeni texnoloji qaydalara uyğun çəkilməsini, yeraltı xətlərlə əvəz edilməsini tapşırdı. Bu göstərişə əsasən şəhərin bir çox yerlərində, elə bizim yaşadığımız Binəqədi rayonu, Məmməd Əmin Rəsulzadə qəsəbəsinin bir hissəsində bu layihə həyata keçirilib. Qalıb bizim yaşadığımız Koroğlu küçəsi.

Bü günlərdə Gədəbəyin Söyüdlü kəndində baş verən hadisələrə ölkə rəhbəri qiymət verərkən bir daha məmur səhlənkarlığını qeyd etdi. Biz də inanırıq ki, müvafiq orqanlar bu çıxışdan dərhal nəticə çıxaracaq və növbəti narazılıqların yaranmasına imkan verməzlər! Qeyd edim ki, bizim şəxsi vəsaitimiz hesabına həmin xətlərin yerinin dəyişdirilməsi imkanımız xaricindədir.

Binəqədi rayonu, Məmməd Əmin Rəsulzadə qəsəbəsi, Koroğlu küçəsində 70 ilə yaxındır ki, 50 ev- böyükli, kiçikli 200 nəfərdən yuxarı əhali məskunlaşıb. Yüksək gərginlikli eletkrik xətləri evlərimizin, həyətlərimizin üstündən keçir. Azyaşlı uşaqlarımız, gələcəyimizin nümayəndələri həyətdə, məhəllədə oynayırlar və belə bir riskin altında biz çox narahatıq. Bir daha qeyd edirəm ki, bizim küçənin ətrafındakı bütün yüksək gərginlikli elektrik xətlərinin hamısının yeri dəyişdirilmişdir. Yuxarıda qeyd olunanları nəzərə alaraq xahiş edirik ki, bizim yaşadığımız ünvanın elektrik xətlərinin yerinin dəyişilməsinə görə müvafiq orqanlara müraciətlərimizin çatdırılmasında, məsələnin ictimailəşməsində bizə köməklik göstərəsiniz. Məktubu bütün məhəllə sakinləri adından sizə ünvanlayıram.

*Hökümə Mahmudova,*
*Binəqədi rayonu, Məmməd Əmin Rəsulzadə qəsəbəsi,*
*Koroqlu kuçəsi, ev 23*

# VƏTƏN MÜHARİBƏSİNƏ GEDƏN YOLUN ƏSAS MƏRHƏLƏLƏRİNDƏN BİRİ - TOVUZ DÖYÜŞLƏRİ

Azərbaycan Ordusunun qəhrəmanlıq salnaməsinə Tovuz döyüşləri qızıl hərflərlə yazılıb. Silahlı Qüvvələrimizin şanlı Zəfər qazandığı Vətən müharibəsinə gedən yolun əsas mərhələlərindən olan 2020-ci ilin iyulunda baş vermiş Tovuz döyüşlərinin başlamasından 3 il ötür.

Tovuz döyüşləri ilə bağlı Trend-ə açıqlama verən hərbi ekspert, polkovnik Alparslan İmamqulu bildirib ki, döyüşlər Ermənistan hərbi birləşmələrinin Azərbaycan dövlət sərhəddində törətdiyi təxribatlarla başladı.

O bildirib ki, bu bölgəyə diqqət yetirsək respublikanın bir sıra strateji əhəmiyyətli logistika yolları, enerji boru xətləri burdan keçir.

"Həmin bölgədə ola biləcək hər hansı bir uğursuzluq ölkəmizin blokada vəziyyətinə gətirib çıxarılmasına səbəb ola bilərdi. Təbii ki, düşmən Tovuz döyüşlərində layiqli cavabını aldı. Bu döyüşlərdə əldə olunan təcrübələr, mənəvi-psixoloji yüksəklik, ordu, xalq, dövlət həmrəyliyi Vətən Müharibəsindən öncə ciddi bir başlanğıc idi. ovuzda baş verən hərbi təxribat Azərbaycan xalqının ayağa qalxaraq, yumruq kimi birləşməsinə təkan verdi. Tovuz hadisələri və ermənilərin digər təxribatları müharibəni qaçılmaz etdi. Nəticə etibarilə Tovuzda başlanan təxribatın cavabı düşmənə layiqincə Şuşada verilmiş oldu. Və 30 illik işğal altında olan bir sıra torpaqlarımız da azad edildi", - deyə hərbi ekspert qeyd edib.

Qeyd edək ki, Tovuz döyüşləri 2020-ci ilin iyulun 12-dən başlayıb 17-dək davam edib.

Tovuz döyüşlərində heç bir ərazi itkisi olmayıb. Beləliklə, döyüşlərdə Azərbaycan Ordusunun 12 hərbi qulluqçusu - general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, baş leytenant Rəşad Mahmudov, gizir İlqar Zeynalli, gizir Yaşar Babayev, çavuş Vüqar Sadıqov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, baş əsgər Elşad Məmmədov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu, əsgər Elçin Mustafazadə, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu, əsgər Nazim İsmayılov və əsgər Xəyyam Daşdəmirov qəhrəmancasına şəhid olub.



***Allah şəhidlərimizə rəhmət eləsin!***

# AMERİKA TİCARƏT PALATASININ VERGİ VƏ GÖMRÜK KOMİTƏSİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB

***Hakimiyyet.info.az xəbər verir ki, Dövlət Gömrük Komitəsində Azərbaycanda Amerika Ticarət Palatasının (AMCHAM) Vergi və Gömrük Komitəsinin üzvləri ilə görüş keçirilib.***





Görüşdə Dövlət Gömrük Komitəsində son dövrlərdə aparılan təkmilləşdirilmələr, tətbiq edilən layihələrlə bağlı fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, gömrük orqanları vətəndaş və sahibkar məmnuniyyətinin təmin olunması, qərarların qəbul edilməsi prosesində xarici ticarət iştirakçılarının və digər hədəf qruplarının təklif və rəylərinin öyrənilməsinə xüsusi önəm verir. Görüşdə gömrük sistemində aparılan təkmilləşdirilmələrin biznesə faydaları, gömrük dəyəri, qısa idxal bəyannaməsi, qanunvericilik və digər mövzularda müzakirələr aparılıb, palata üzvlərinin fikir və rəyləri öyrənilib, onları maraqlandıran suallar ətraflı cavablandırılıb.